# KAMANÇANIN YARANMASI MİLLİ MUĞAM İFAÇILIQ SƏNƏTİNDƏ ONUN ƏHƏMİYYƏTLİYİ VƏ İNKİŞAFINA DAİR BƏZİ MƏSƏLƏLƏR

***Müstəqillik əldə edildikdən sonra milli təfəkkürün öz köklərinə qayıtmaqla formalaşması (bərpası) və inkişafı ilə bağlı dövlət siyasətinin aparılması nəticəsində, onun mühüm sütunu hesab olunan muğam sənətinin konseptual əsaslarının yenidən baxılmasını zəruri etmişdir. Bu səbəbdən Azərbaycanda müqam sənətinin formalaşması və inkişafına misilsiz xidmət göstərən musiqi elminin korifeyləri — ilk növbədə Səfiyəddin Urməvi, Əbdülqadir Marağİ, Mir Möhsün Nəvvab, Üzeyir Hacıbəyov və Əfrasiyab Bədəlbəylinin yaradıcılığının, xüsusən də Azərbaycan xalq çalğı alətlərinin yaranması, inkişaf tarixi, təsnifatı, spesifik quruluşu, ölçüləri, texniki imkanları və ifa uyğunluğuna dair aparılmış mühüm tədqiqatların oyrənilməsi, araşdırması və tətbiqinə strateji önəm verilmişdir.***



Üzeyir Hacıbəyov «Основы Азербайджанской народной музыки» əsərində qeyd etmişdir ki, Yaxın Şərq xalqlarının musiqisinin nəzəri və praktiki inkişafı tarixində aparıcı yer tutmuş iki dünya şöhrətli azərbaycan alimi olmuşdur: Səfiəddin (Urmiyadan) — XIII əsr və Əbdülqədir Marağİ (Marağadan) — XIV əsr. XIX əsrin alimi — musiqişünas Nəvvab Mir Möhsün Hacı Seyid Əhməd oğlu Qarabaği (Şuşadan) yuxarıda göstərilən alimlərin əsərlərinə əsaslanaraq özünün «Vüzuhül — ərqam» adlı broşürunda (musiqi terminlərinin izahı) Yaxın Şərq xalqlarının qədim musiqisindən bəhs edir.

Hazırda, el bayramları və tamaşalarında, muğam operaları və konsertlərində, orkestr və ansambllarında ənənəvi çalğı alətlərininin dəst halında və ya solo çalınması, onların hər birinin özünəməxsus ahəngdarlığı ilə adətən xanəndələr tərəfindən oxunan muğamların, müstəqil təsniflərin, xalq mahnılarının ifası zamanı müşahidə olunur. Burada, Azərbaycanda daha geniş yayılmış ilk növbədə tar, kamança, saz, ud, balaban, ney, qaval, dəf, nağara və qoşanağara kimi çalğı alətlərinin qeyd etmək olar. Onların arasında da kamançanın əhəmiyyətliyi barədə xüsusi yer ayırmaq lazımdır.

Əfrasiyab Bədəlbəylinin «Musiqi luğəti»ndə kamança aşağıdakı kimi təsvfir olunur. Kamança — simli musiqi aləti. Çanağı kürəvi, qolu pərdəsiz membranası (üzü) balıq dərisindən ya da qara mal ciyərinin pərdəsindən çəkilir. Ağac çubuğa (yay) bağlanmış bir çəngə at tükünün tutamı simləri səsləndirir. Kamança əvvəllər üç simli olmuş, hazırda dörd simlidir. Kamança ən qədim Azərbaycan musiqi alətlərindən biridir. Kamançada istər solo, istərsədə sazəndələr dəstəsi tərkibindən ansabl musiqi aləti kimi istifadə olunur. Son dərəcədə təsirli tembri olan kamança lirik musiqilə gözəl təsir bağışlayır.

İlk telli çalğı alətlərinin yaranma tarixini dəqiq təyin etmək mümkün olmasa da, lakin quruluşunun sadəliyinə görə, onun kifayət qədər qədim dövrə (alətlərin təxmini yaranma tarixini müəyyənləşdirmək üçün kaman və oxun kəşf olunma dövrünə) aid edilməsi barədə fərziyə yürütmək olar.

Kamança alətinin tədqiqinə dair kifayət qədər samballı elmi əsərlərin, məqalələrin yazılmasına baxmayaraq, bu alətin yaranması ilə bağlı müxtəlif yanaşmlar mövcuddur.

Bu yanaşmalar barədə fikirlər bir çox alimlərin yazılarında öz əksini tapmışdır. Azərbaycan Milli Konservatoriyasının dosenti Yaqut Şıxseyidovun «Kamançanın Azərbaycan musiqi mədəniyyətinin inkişafında rolu» məqaləsində kamançanın yaranmasına dair müzakirə obyekti hesab olunan yanaşmaları qeyd etmişdir.

«...Belə ki, eramızdan əvvəl IV— III əsrlərdə qədim Misirdə yaranmış kamanlı rübabdan IX—XII əsrlərdə Azərbaycanda istifadə edilmişdir. Ehtimala görə, bu alət kamançanın əcdadı sayıla bilər. Bəzi türk mənbələrinə görə, kamanlı alət olan və müasir kamançanı xatırladan pandurun ən qədim növü hələ beş min il əvvəl öncə şumerlər tərəfindən mizrabla çalınan növü yaranmışdır.

Başqa bir məlumata görə, türk xalqlarında istifadə olunmuş qıl qopuz aləti Azərbaycan ərazisində Sasanilər dövründə farslara keçərək VI—VII əsrlərdə kaman, kəman Sasanilərdən (VII—VIII əsrlər) ərəblərə keçərək kəmənçə adı altında istifadə olunmuşdur. Orqanoloqların verdikləri təsnifatlar göstərir ki, ərəblərdə istifadə olunan kəmənçə xeyli kiçik çanağa (Hind və kakos qozundan hazırlandığı üçün) uzun qola malik bir alət imiş».

Göstərilən yanaşmalardan, fikrimizcə eramızdan əvvəl IV—III əsrlərdə qədim Misirdə icad olunmuş kamanlı rübabdan kamançanın yaranması konsepsiyası aşağıdakı əsaslarla daha etibaqlı mənbə kimi sayılmalıdır.

Musiqi alətşünaslığında yayla (kamanla) səsləndirilən çalğı alətlərinin vətəni sayılan Qədim Misirdə eramızdan əvvəl təxminən IV—III əsrlərdə yayla (kamanla) səsləndirilən ilk alət — rübab yaradılmışdır.

Burada, Azərbaycanda xordofonlu alətlər qrupuna daxil olunan simli çalğı alətlərini, onların ifa tərzinə görə, dörd qrupa bölünməsini qeyd etmək lazımdır:

1. Mizrabla ifa edilənlər: pandur, tar, saz, ud, qanun;
2. Yayla (Kamanla) ifa edilənlər: rübab, kamança, çəqanə;
3. Barmaqla ifa edilənlər: çəng, şirvan tənburu;
4. Ağac toxmaqla (çubuqla) ifa edilənlər: səntur.

Yəni, mizrabla ifa edilən pandurdan fərqli olaraq, kamança da rübab kimi yayla (kamanla) səslənən alətdir.

Azərbaycana gəldikdə isə, bir çox alimlərin əsərlərində yaylı (kamanlı) çalğı alətlərinin yayılması məhz Orta əsrlərin qaynaqlarında ən etibarlı mənbələr sayılması barədə fikirlər öz təsdiqini tapır.

Göstərilən yanaşma Azərbaycanda VII əsrədək yaylı (kamanlı) çalğı alətlərinin icad olunması və yayılması barədə etibarlı mənbələrin olmamaması və ya İslam dinin yaranmaması ilə izah edilir.

Yəni, başqa ölkələrdə olduğu kimi, Azərbaycanda da məskunlaşan ərəblər İslam dinini öz milli musiqi alətlərinin, o cümlədən yaylı (kamanlı) rübabın vasitəsi ilə yaymaqla təbliğ edirdi.

Dunyada İslam dininin bərqərar olunması uğrunda müsəlmanların böyük əzm və şücaətlə qeyri-müsəlman ölkələri ilə apardığı müharibələr nəticəsində Yaxın və Orta Şərqin, Şimali Afrikanın, Cənub-Qərbi Avropanın zəbt edilməsi bu torpaqların Ərəb Xilafətinə qatılması xilafətin vahid məkanında İslam musiqi sənətinin təbliği, yayılması və inkişafı üçün münbit zəmin yaratmışdır.

Başqa sözlə desək, bəşər mədəniyyəti tarixində yunan musiqisi nəzəriyyəsinin əsaslarının qəbul edilməsi, İran və Bizans musiqisinin təsiri hesabına ərəb musiqisinin səs sisteminin genişlənməsi və təkmilləşdirilməsi klassik İslam mədəniyyətinin mühüm yer tutulması ilə nəticələnmişdir. Bu mədəniyyət Hindistandan İspaniyaya qədər, Yaxın və Orta Şərqdən Şimali Afrikaya qədər olan ərazilərdə Antik mədəniyyətlə Orta əsrlə Qərb mədəniyyəti arasında əlaqələndirisi (özündə həm maddi, həm də qeyri-maddi, onların mədəniyyət dəyərlər sistemini bildirirən) funksiyanın həyata keçirilməsini təmin edirdi.

Filologiya elmləri namizədi Samirə Mir-Bağırzadənin «Философия музыки в эпоху арабского халифата» məqaləsində qeyd olunur ki, VII — VIII əsrlərdə yunanların və farsların musiqisinin öyrənilməsi nəticəsində ərəb alimlərinin hazırladıqları metodikasına uyğun olaraq, melodiyanı yumşaq dalğalı xəttini pozan səsdə qəfil sıçrayışları rədd edilirdi və ərəb müğənniləri tərəfindən ərəb musiqi nəzəriyyəsini müəyyənləşdirən 8 əsas lad sistemi üzrə mənimsənilən oxuma tərzi ilə ifa olunurdu.

Abbasilər xilafəti dövründə (750— 847) ərəb mədəniyyətinin «qızıl dövrü» hesab olunan ərəb mədəniyyətinin inkişaf olunmasına və həmin dövrdə Qərbi Avropa xristian mədəniyyətinə hərtərəfli təsir göstərməsinə baxmayaraq, xilafətin yeni paytaxtı İraqın Bağdad şəhəri (762-ci ildə) elan edildikdən sonra qədim mədəniyyət ənənələrinə əsaslanan fars incəsənəti öz möhtəşəmliyi və özünəməxsus zəngin koloriti ilə ərəb musiqisinə təsir göstərməyə başlamışdır.

Alim və şair İbn Sinanın (980 — 1037) əsərlərində lad nəzəriyyəsinin sonrakı inkişafı öz əksini tapır. O, 8 ərəb ladını 12 ladla əvəz etməklə, onların təsvirini vermişdir.

Ərəb musiqisinə köklü dəyişiklikləri edən bu təsirin əhəmiyyətli dərəcədə gücləndirilməsi hesabına ərəb mədəniyyətin artıq təkcə ərəblərə aid olmadığını və bütün müsəlmanların mədəni irsinə şamil edildiyini göstərmiş və beləliklə də müsəlman mədəniyyətinə çevrilməsi prosesində mühüm rol oynamışdır.

Beləliklə, İslamın gəlişi ilə kamanlı (yaylı) rübabın yayılması Ərəb xilafətinə vaxtı ilə daxil olan ölkələrdə, o cümlədən Azərbaycanda da digər fərqli şəkildə müxtəlif kamanlı (yaylı) alətlərin icad olunmasına səbəb olmuşdur.

Nümunə üçün Azərbaycanda Orta əsrin müxtəlif dövrlərində icad olunmuş və istifadə edilən çağanə, yektay, qabaq kamanə, çaqanaq, bəm çaqanaq, əhsən vəlləz, qicək, iklik, kamança, bəm kamança, əsa kamança, ney-kamanı (yaxud ney kamançanı) göstərmək olar.

Burada, Səlcuqların XI-XII əsrlərdə qurduğu imperatorluğunun mövcud olan mədəni irsinin qorunması, təkmilləşdirilməsi və inkişafını təmin edən apardığı siyasətinin rolunu qeyd etmək lazımdır.

Ərəblərdən fərqli olaraq, Səlcuqlar tərəfindən, islam dininin və mədəniyyətinin təbliqi və yayılması zamanı xalqların milli məhkürəsinə toxunmayan və islamı dərk etməklə qəbul edilməsini təmin edən, müsbət təsir göstərən mədəni, ictimayi və əhlaqi üstünlüklərini göstərməklə metodlardan geniş və səmərəli istifadə olunurdu.

Səlcuq hökmdarları hakimiyyətdə olan müddətdə, Qəznəvilərin X-XI əsrlərdə apardığı siyasətini davam etdirməklə, fars dilinin hüquqi varisliyini saxlamış və haqlı olaraq ədəbiyyat və incəsənətin, həmçinin boyük geosiyasi və informasiya məkanında xaqlar arasında ünsiyyət dili kimi tanınan bu dilin geniş yayılmasına daim diqqət və qayğı göstərmişdilər.

O dövrlərdə türk dillərinin işlənməsinin yalnız türklər arasında təsadüf edilməsini, formalaşması və inkişafının isə əksər hallarda aşıqlar tərəfindən yaratdığı türkçülük məfkürəsinə əsaslanan türklərin dünyanı dərketmə fəlsəfəsini özündə əks etdirən qəhrəmanlıq və məhəbbət dastanlarında şifahi xalq yaradıcılıq vasitəsi ilə həyata keçirildiyini nəzərə alaraq, filosoflar və mütəfəkkirlər, ədəbiyyat və incəsənət xadimləri yazdıqları əsərlərinin imperiya daxilində və onun kənarında uğurla təqdim olunması və geniş yayılması üçün daha mükəmməl hesab olunan fars dilindən bəhrələnməklə öz yaradıcılıq fəaliyyətini qururdular.

Qəznəvilərin və Səlcuqların imperiyasının süqutundan sonra digər türk əsilli xanədanlar tərəfindən qurduqları dövlətlərdə də Yaxın Şərqdə və Orta Şərqdə bir çox türk xalqlarının mədəni irsinin formalaşması və inkişafı ilk növbədə farsdilli ədəbiyyatın və incəsənətin yaradılması ilə bağlıdır.

Bu səbəbdən orta əsrlərdə dünya şöhrətli fars olmayan bir çox filosof və şairlər Azərbaycan şairlərindən — Nizami Gəncəvi (1141-1209), Qətran Təbrizi (1010-1080), Məhsəti Gəncəvi (1089-1183), Əbül-əla Gəncəvi (1096-1159), Xaqani Şirvani (1126-1199), Fələki Şirvani (1126-1160); Osmanlı şairlərindən — Mövlanə Cəlaləddin Rumi (1207-1273), Yusuf Nabi (1642-1712); Özbəkistan şairlərindən — Pəhləvan Mahmud (1248-1326), Lütfi (1366-1465), Əlişir Nəvahi (1441-1501); Hind şairlərindən — Əmir Xosrov Dehlevi (1253-1325), Əbul Fəzl Alami (1551-1602), Məhəmməd Qasim Hindu Shah Astrabadi Firishta (1572-1623) və Məhəmməd Quli Qutb Şah (1580-1611) öz ədəbi əsərlərini fars dilində yaratmışlar.

Azərbaycanda milli ənənəvi çalğı alətləri ilə yanaşı, kamanlı (yaylı) alətlərin yayılması barədə məlumatlar bir çox mənbələrdə, o cümlədən həmin dövrlərdə fəaliyyət göstərən dünya əhəmiyyətli şairlərimizin əsərlərində müşahidə olunur.

Belə ki, Azərbaycanda həmin dövrdə kamanlı (yaylı) alətlərin geniş istifadə yayılması Xaqani Şirvaninin «Sultan Səncərin həbsi və Məhəmməd İbn Yəhyanın və Fati haqqında» şerində:

Fələyin çalğı çalan əli işə başlayıb,<br>
Gecədən tel düzəltdi, hilah etdi Kaman

Nizami Gəncəvinin «Xosrov və Şirin» əsərində:

*Dünyaya təptəzə bir ruh verdilər,*<br>
*Içib kef çəkdilər səhərə qədər.*<br>
*Ipək tel çənglərdə dəstgah çalanlar*<br>
*Açdılar ürəkdə, könüldə nə var.*<br>
*Pəhləvi nəğməsi axıb hər yana*<br>
*Bir yanğın salmışdı daşın bağrına.*<br>
*Kaman Musa kimi yanır, inləyir,*<br>
*Çalan xanəndəni durub dinləyir.*

Nizami Gəncəvinin «Leyli və Məcnun» əsərində:

*Bir də bu mətləbdən gəl danışma heç,*<br>
*Söhbəti qurtaraq, bu işdən vaz keç,*<br>
*Onu amirlər sakit dinlədi,*<br>
*Atanın qəlbində kaman inlədi...*

öz əksini tapmışdır.

***Elxan CƏFƏROV.***

**Ardı var.**